# LƏNKƏRAN MUZEYİNDƏ GÖRÜŞ





Bu gün -17 yanvar 2026-cı il tarixdə AYB Lənkəran Bölməsinin və Lənkəran Tarix və Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə ölkənin ilk poliqrafçı alimi,Azərbaycan və Rusiya Yazıçılar Birliklərinin üzvü , yazıçı publisist Şəddat Cəfərovla görüş keçirildi.

Tədbir muzeydə Şəddat Cəfərovun həyat və





yaradıcılığını əks etdirən sərginin açılışı ilə başlandı. Muzeyin direktoru, tarix üzrə fəlsəfə doktoru Leyla Məcidova sərgi barədə iştirakçılara məlumat verdi. Yazıçı Etibar Əhədov və ağsaqqal Fəxrəddin Canıyev çıxış edərək Şəddat müəllimlə bağlı fikirlərini bölüşdülər.

Tədbir AYB Lənkəran Bölməsində davam etdirildi. Bölmə sədri, yazıçı dramaturq Qafar Cəfərli, şair və yazıçılardan Ağamir Cavad, Səyavuş Süleymanlı,İltifat Əhmədov,Hafiz Mirzə,Qardaşxan Fərzi və qeyriləri 3 gün əvvəl 86 yaşını qeyd edən Şəddat Cəfərovu təbrik etdilər,onunla bağlı arzu və istəklərini bildirdilər.

Sonda Şəddat müəllimin qızı Sevinc Jafarova, oğlu İdrak Cəfərov və Şəddat Cəfərov çıxıs edib keçirilən tədbirlərə görə təşkilatçılara və iştirakçılara minnətdarlığını bildirdilər.

Tədbirdə bölgə yazarları, ziyalılar,səbəbkarın ailə üzvləri və yaxın qohumları iştirak etdilər.